# Azərbaycanın və Qazaxıstanın ali təhsil imkanları müzakirə edilib







Martın 4-də ADA Universitetində "Azərbaycan və Qazaxıstan arasında ali təhsildə əməkdaşlığın genişləndirilməsi" mövzusunda "dəyirmi masa" təşkil edilib.

AZƏRTAC xəbər verir ki, "dəyirmi masa"ya evsahibliyi edən ADA Universitetinin rektoru Hafiz Paşayev rəhbəri olduğu universitetdə çalışan qazaxıstanlı akademik heyətin peşəkarlığını vurğulayaraq gələcəkdə Azərbaycan ilə Qazaxıstan arasında elm və təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün səylərin davam etdiriləcəyini bildirib.

Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek iki ölkə arasında ali təhsil sahəsində əməkdaşlığı genişləndirmək niyyətində olduğunu diqqətə çatdırıb. Qarşılıqlı akademik və elmi əməkdaşlığın gücləndirilməsinin vacibliyinə toxunan Sayasat Nurbek əlavə edib ki, iki ölkə arasında hazırda təhsil strategiyaları, tərəfdaş universitetlərlə əməkdaşlıq planları və innovativ yanaşmalar üzərində işlər aparılır. Nazir bildirib ki, akademik və tədqiqat sahələrində yeni imkanlar yaratmaq üçün birgə fəaliyyət genişləndirilir.

"Dəyirmi masa"da çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan və Qazaxıstanın təhsil sahəsində oxşar hərəkət modelindən istifadə edəcəyini söyləyib. Azərbaycanla Qazaxıstan arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyinə toxunan nazir Emin Əmrullayev qeyd edib ki, hər iki ölkənin öz milli maraqları mövcuddur və bu maraqlara əsaslanaraq, təhsil sahəsində oxşar hərəkət modelindən istifadəyə qərar verilib. Nazir vurğulayıb ki, əsas məqsəd ali təhsili gücləndirmək və universitetlərimizin davamlı inkişafını təmin etməkdir.

Bakıda ilk dəfə keçiriləcək Qazaxıstan universitetlərinin təhsil sərgisindən söz açan Emin Əmrullayev qeyd edib ki, bu tədbir akademik əməkdaşlıq üçün mühüm bir addımdır. Nazir hər iki ölkənin universitetlərini qarşılıqlı sıx əməkdaşlığa çağırıb.

Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel həm Qazaxıstanda, həm də Azərbaycanda geniş təhsil islahatları aparıldığını vurğulayaraq hər iki ölkənin müvafiq sahədə əməkdaşlığı daha da gücləndirmək niyyətində olduğunu əlavə edib. Daha sonra hər iki ölkənin ali təhsil müəssisələrinin rəhbərləri Azərbaycanın və Qazaxıstanın ali məktəbləri arasındakı mövcud əlaqələrdən, əməkdaşlıq imkanlarından danışıblar.

"Dəyirmi masa" çərçivəsində ölkələr arasında qarşılıqlı ikili diplom proqramlarının effektiv tətbiqi, innovasiya, elmi-tədqiqat və qarşılıqlı mübadilə proqramlarının genişləndirilməsi mövzularında müzakirələr aparılıb.

Müzakirələrdən sonra hər iki ölkədən ümumilikdə 17 universitetin iştirakı ilə 40 qarşılıqlı anlaşma memorandumu imzalanıb.

Azərbaycan.- 2025.- 5 mart (№49).- S.4.